Mürəkkəb cümlələrin iki növü var: tabesiz və tabeli mürəkkəb cümlələr.

Bərabərhüquqlu cümlələrin birləşməsindən əmələ gələn cümlələrə *tabesiz mürəkkəb cümlələr* deyilir. Belə cümlələr həm intonasiya, həm də tabesizlik bağlayıcıları ilə bağlanır.

Məsələn:

Başqalarını tanıyan şəxs bilikli, özünü tanıyan şəxs ağıllıdır.

1938-ci ildə "Koroğlu" operası Moskvada tamaşaya qoyulur və Bülbül baş rolda çıxış edərək ariyaları gözəl səslə ifa edir.

13. Tabesizlik bağlayıcılarını yadınıza salaraq aşağıdakı sxemi tamamlayın. Bağlayıcılardan istifadə edərək tabesiz mürəkkəb cümlələr qurun, onları düzgün intonasiya ilə oxuyun.



14. Mətndə (səh. 60) altından xətt çəkilmiş cümlələri tabesiz mürəkkəb cümlələr şəklində qurun.